# AYAMA, LƏQƏB

(Esse)

Gözəllər gözəli, gül qönçəsi kimi təravətli idi. Neçə növcanın ağlını başından eyləyən, hələ məhəbbət dastanı yaşlı nəslin yaddaş cədvəlindən silinməyən o qızın adı dilimin ucundadı... Hə, hə, tapdım, Gülsümü unutmaqmı olar? Hərdən bir küçədə, yol qırağında rastlaşır, salamlaşırıq. Baxın, baxın: nəvələri ilə ya bazardan, ya da dükandan gəlir. Salam-kalam, ona sataşmaq istəyirəm. Nəvəsindən soruşuram:

-Nənənin adı nədir?

Uşaq təəccüblə üzümə baxır, deyir:

-Bə bilmirsən? Büzük Gülsüm! O da borclu qalmır, mənə sataşır:

-Nədi? Noolub? Köhnə dərdin təzələndi? Ara xəlvət, tülki bəy?.. Söz gedib çatar Leylaya, pişiyüvü ağaca dırmaşdırar haa!..

***

...Çörəyə "pəpə", suya "ümmə" dediyim uşaqlığım. Hündür boylu, iriaddımlı bir kişi vardı kəndimizdə. Pambıq briqadiri idi. Böyüklərin fikrincə, başqa vəzifəlilərdən fərqlənirdi. Gözütoxluğu, mehriban münasibəti, ləyaqəti, şirin dili, düz sözü sevdirirdi onu. Tabeliyində olan işçiləri incidib, kimsədən pul, toyuq, yumurta... istəməzdi heç zaman. Namuslu, ismətli kişi idi. Briqadirdir deyə müharibəyə gedib qayıtmayan əsgərlərin dul qadınlarına, ata evində qarıyan qızlara əyri gözlə baxmazdı. Halal çörəyi ilə xanımı Mənsuməylə əl-ələ verərək, külfətini dolandırırdı.

Bəs belə bir insanın adı nə idi? Donbagöz Nüsrət!

*** **** ***

...Biz çox zaman onun nehrəssinin ətrafında atılıb -düşərdik. Niyə? Bilirdik ki, bizə təzə nehrə yağını təndir çörəyinin üstünə yaxıb, dadlı, yeməli yaxmac verəcək. Uşaqlara acı sözü "başına dönüm", "qurban olum", "gözüvü yeyim", "qadan mənə" olan bizim sevimli nənəmizin adı vallah heç dilə gətiriləsi deyildi: Koruş! Kim onu belə adlandırmışdı, hardan biləydik. Mal-heyvan, ev quşları saxlamaqla bir qıçını müharibədə qoyub gəlmiş əri Zeynalı balalarını urvatlı, abırlı-həyalı saxlayırdı. Kənddə hamı, qonum-qonşu xətrini çox istəyirdi bizim Koruş nənəmizi.

Çox sonralar qəbristanlığa getmişdim. Məzarını ziyarət elədim, baş daşını oxudum. Nə gözəl adı varmış: Gülzar! Şəklini öpdüm və Allahdan ona rəhmət dilədim.

***

10-cu sinifdə oxuyan, gül qönçəsi kimi yenicə pardaxlayan yeniyetmə qızlar-Günayla Şanaz küslüdürlər. Rəfiqələri nə qədər cəhd eləsələr belə, qızlar barışmır, hələ üstəlik bu onun, o bunun paxıllığını çəkir. Noolub? Nə baş verib? Uşaqlar bunun səbəbini yaxşı bilir, elə müəllimlər də əksər fənnlərdən "əla" və "yaxşı" qiymətlər alan, məktəbin ictimai tədbirlərində fəallıq göstərən, ali təhsil almaq məqsədilə repititator yanına gedib-gələn Günayla Şahnazın, necə deyərlər, küsüşmələrindən bixəbər deyillər.

İki il öncə dalaşıblar, az qalıblar saçyoldusuna çıxsınlar. Niyə? Bu sualın cavabı sadədi, mürəkkəb deyil. Bir-birlərini lağa qoyublar. Günayın atası dilənçi Əlidi, Şanazın atası "Xaxol Bayram". Budu, iki məktəbli qızın dava-dalaşının sonluğu. Əslində dilənçi də, xaxol da ayamadı, ləqəbdi.

***

Çoxdandı bir-birlərini görmür, hal-əhval tutmurdular. O gün təsadüfən yol qırağında rastlaşdılar.

-Vaxtı varsa, gəl çay içək-deyib. Əlizadə müəllim dostunu "Aynur"un arxasındakı çayxanaya gətirdi. Soruşdu:

-Nədi, gözümə bir təhər dəyirsən? Evdə-eşikdə salamatlıqdı?

-Hə, hə, bir elə çətinliyim, narahatlığım yoxdu. Ancaq bilirsən nə olub? Qapıbir qonşularım, əmioğullarım bir qələt iş tutublar... Eh yaxşı deyiblər, kasıb başa düşmür ki, əlləşib-vuruşmaqla döyül, onu bu günə qoyan Böyük Yaradandır elə.

Əlizadə müəllim üstün gəlir:

-Eşitməmisən, deyirlər: Əbləh kasıb oturub-durub varlının maldövlətini hesablar, orda-burda bu haqda ağzına gələni danışar.

Ramiz müəllim mısı-mısı yığışdırıb keçir Mustafaya:

-Əmioğullarımın hərəsinin 10-15 qoyunu, 4-5 qaramalı var. Hər gün aparırlar kanal qıraqlarında, pay torpaqlarında otarır, ailələrinin gün-güzəranını birtəhər ödəyirlər. Pis dolanmırlar. Min şükür! Keçən həftə tamah güc gəlib, qoşulublar çoxlarına, gediblər İrana. Ailə üçün yağ, kartof, soğan, qənd, çay... gətirməyə. Bilirsən də, bu məhsullar bizə nisbətən İranda ucuzdu.

-Əcəb eləyiblər, burda nə var ki... Hamı necə, onlar da elə. Eşitməmisən:palaza bürün, elnən sürün...

Orası elədi, amma sürünə bilməyiblər. Gedib çıxıblar Təbrizə, orada Məşrutəçi Səttar xanın məqbərəsi önünə gül dəstəsi qoymaq istəyiblər. Ajanlar buraxmayıb. Davaları düşüb, ikisini də atıblar qazamata.

Bu vaxt mobilinə zəng gəlir Ramiz müəllimin. Danışır və toxtayır:

-Gəliblər... Allaha çox şükür!

-Bəs demədin kimdi o əmioğulların?

-Şaşa...Mişa...

-Nə danışırsan?

-Əslində böyüyü Sərdardı, kiçiyi Muxtar. Amma ayamaları belədi də...

***

Mövzumu yığıcam, qısaca şəkildə davam etdirirəm.

...Samit hərfləri uzada-uzada tələffüz etdiyinə görə Xudam Hüseynova "Kəkəc Xudam" deyirdilər.

... "Çer, sabah mənim dənimi dəyirmana çatdır də"-"Baş üstə!"

"Çer, mənim yükümü bazara apararsanmı?"-"Baş üstə!"

Kolxozun at-arabasını sürən o çer Əlisahib Məmmədov idi.

...Öz fənnini sevən və sevdirən Ramiz müəllimdən uşaqllar qorxur, çəkinir, müəllimlər isə... ona "dodaq Ramiz" deyib, lağa qoyurlar.

...İki qadın yol qırağında haraba vurur. Sonra söyüş, saçyoldu... Niyə? Nə baş verib? Biri o birinin ərinə "eşşək Məhəmməd" deyib.

Kəndimizdə iki Məzahim var. Birinə "oğru", o birinə "keçəl" deyirlər... Kimin xeyir işi var, "oğru" qalxır at belinə, hamını toya dəvət eləyir. Keçəl oruc tutur, namaz qılır, məsciddə xuddamlıq eləyir, sübh tezdən azan verib, mömin bəndələri namaza səsləyir.

***

Yetər məncə. Bəs görəsən islam dilində, Müqəddəs kitabımızda ayama, ləqəblə bağlı nə var? Bekar dayanmaq olmaz, vərəqləyirəm dini ədəbiyyatı, qəzet və jurnalları.

"Qurani-Kərim" in "hücurət" surəsi. İkinci ayə "Ay möminlər, iman gətirənlər bir-birinizə məsxərə (lağ-lağa) eləməyin... Qadınlar-qadınlara lağ-lağa eləməz... Kişilər- kişilərə lağ-lağa eləməz... Bir-birinizi ləqəblərlə çağırmayın. Belə eləsəz imanınız əldən gedər. Bunu eləyənlər zalım adamlardır... Hətta kafərə, yəhudiyə də pis-pis ləqəblə müraciət eləməyin".

...Oğluna yaxşı dost tapmağı, qənaətcil olmağı nəsihət eləyən Loğman həkim (müqəddəs kitabımızda "Loğman" surəsi var) hiss edir ki, müalicə üçün yanına gələnlər ona baxıb gülürlər. Niyə? Çirkin, eybəcər olub böyük alim. Gözünün altı torbalanmış dərin çopurlar. Alt dodağı aşağı sallanıb. Qulaqları lap yekə... Ona gülənləri ətrafına toplayıb və deyib: Kimə gülürsüz? Nəqqaşa, yoxsa nəqşə? O, (Allah) nəqqaşdır, mən, sən, o, biz hamımız nəqşik...

Son sözüm: İnsanları lağa qoymaq, aşağılamaq, günahların ən böyüyüdür. Gəlin günaha batmayaq.

**Əlibala Rəhimov,**
**publisist, filoloq**
**"Qızıl qələm" mükafatı**
**laureatı,**
**Biləsuvar rayonu**

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100